# Polyester Putty

## Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Knarr Polyester Putty doymamış poliester əsaslı, 2 komponentli, dolğu gücü yüksək poliester əsaslı məcundur. İstifadə zamanı axma və sıçrama yaratmadığı üçün asan tətbiq olunur. Səthə möhkəm yapışır, elastikliyi və zərbə davamlılığı yüksəkdir. Tez sərtləşir və sumbata olunaraq düz səth yaradır.

## Tətbiq sahələri

Avtomobil boya yeniləmə və buna bənzər təmir işlərində dərin səth qüsurlarını aradan qaldırmaq məqsədi ilə dolğu və yoxlama məcunu olaraq, həmçinin təmizlənmiş metal sac, alüminyum, sinklənmiş fiberglas, taxta, poliester və epoksid astarlı səthlərdə, eyni zamanda mebel təmir işlərində istifadə oluna bilər.

## Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Krem |
| **İncəltici** | İncəldilmir |
| **Qarışım nisbəti (kütləcə)** | Comp A - 50 /Comp B -1 |
| **Potlife (20°C)** | 4-6 dəqiqə |
| **Tam quruma(23°C)** | 20-30 dəqiqə |

## Qarışdırma

Komponentlər verilmiş nisbətlərdə dəqiq çəkilərək qarışdırılmalıdır. Əks halda tam sərtləşmə olmayacaq və məhsul lazım olan kimyəvi və mexaniki müqaviməti göstərə bilməyəcək. Çəkilmiş komponentlər polad mala ilə yaxşı qarışdırılmalıdır. Tərkibləri homojen bir şəkildə qarışdırılana qədər qarışdırma davam etdirilməlidir. Nəzərə almaq lazımdır ki, böyük miqdarda və / və ya yüksək temperaturda hazırlanan qarışıqların istifadə müddəti (potlife) qısalacaq.

## İstifadə üsulları

İş sahəsi və səth temperaturu 10°C – 30°C olmalıdır və örtük tətbiq edilməzdən əvvəl səthi pas, yağ, toz və oxşar çirklərdən təmizləmək lazımdır. Tətbiq olunan səthdə nəm olmamalıdır.

Tətbiq olunan səth metal təbəqədirsə, örtüləcək səth ISO 8501 standartına uyğun olaraq SA 2 1⁄2-dir. St 2 səviyyəsinə qədər qumlanmalı və ya ən azı St2 səviyyəsinə qədər mexaniki təmizlənməlidir.

Hazırlanan qarışım 4-6 dəqiqə ərzində istifadə olunmalıdır. İstifadədən 20-30 dəqiqə sonra səthə və vurulma qalınlığından asılı olaraq uyğun sumbata kağızı ilə sumbata olunduqdan sorna səthin astarlanma prosesi başlaya bilər.

| | |
|---|---|
| **Polad sac** | P80-150 |
| **Qalvaniz** | P220-280 |
| **Aluminium** | P180-240 |

## Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (20$^{o}$C-də) 12 aydır.

**“CMT Group” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

# Polyester Putty

Texniki Məlumat Səhifəsi

## Qablaşdırılma şəkli
1.25, 3 KQ-lıq A Komponenti və 0.25, 0.60 KQ-lıq B Komponenti olaraq istehsal olunur.

## Tətbiq edən operator
Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi
Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət
Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları
Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

**Qeyd:** "CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.

---

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com